# Sosial-iqtisadi inkişafın Qəbələ nümunəsi

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat

# MƏRUZƏSİ

(Əvvəli 3-cü səhifədə).

Bu il iyunun 7-də aktiv məşğulluq tədbiri olan əmək yarmarkası keçirilmiş, yarmarkada iştirak edən vətəndaşlardan 71 nəfərinə göndəriş verilmişdir. Onlardan 63 nəfəri işlə təmin edilmişdir.

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən uğurla gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətlər ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

9 ay ərzində bütün növ istehlakçı qruplar tərəfindən 84.502,3 min kvt/saat elektrik enerjisi istehlak edilmiş, 7133,8 min manata qarşı 6365,1 min manat vəsait toplanaraq yığım planı 89,2 % yerinə yetirilmişdir. Həmin göstərici büdcə təşkilatları üzrə 58,7 %, dövlət müəssisələri üzrə 62,1 %, ticarət xidməti üzrə 93,4 %, özəl sənaye üzrə 91,7 %, əhali qrupu üzrə isə 97,1 % olmuşdur.

10/6 kV-luq hava xəttinin 15 km məsafəsində əsaslı və cari təmir işləri aparılmışdır. 10 kV-luq Nic, Bum, Vəndam, Zarağan, Mıxlıqovaq, Dizaxlı, Tüntül elektrik verilişi xətlərində 268 ədəd fiziki köhnəlmiş ağac dayaq metal dayaqlarla əvəzlənmiş, 20700 metr məsafədə fiziki köhnəlmiş naqillər dəyişdirilmişdir. 6 ədəd 10/0,4 kV-luq transformator yarımstansiyalarında 250 amperlik ayrıcı quraşdırılmış, 10 kV-luq Vəndam və Bum hava xəttində 2 ədəd yeni güc mərkəzi istismara verilmişdir. Qəbələ Paylayıcı Şəbəkə Sahəsinin xidməti ərazisində 22 km məsafədə 0,4 kV-luq fiziki köhnəlmiş və istismara yararsız naqillər yenilənmiş, 544 ədəd fiziki köhnəlmiş 0,4 kV-luq ağac dayaqlar yeni müasir tipli dəmir-beton və dəmir dayaqlarla əvəz edilmişdir. 235 ədəd transformator yarımstansiyasının qoruq zonası alaq otları və kollardan təmizlənmiş, 40 km məsafədə 0,4 kV-luq hava xəttinin ağac kütlələrindən təmizlənməsi işləri aparılmışdır.

Təbii qaz istehlakçıları tərəfindən 28602,6 min kub.metr təbii qaz istehlak edilmiş, 4057,3 min manata qarşı 4184,9 min manat vəsait toplanaraq ümumi yığım məbləği 103,1 % təşkil etmişdir. Həmin göstərici əhali sektoru üzrə 106,2 %, büdcə təşkilatları üzrə 91,8 %, sənaye, kommersiya və digər təşkilatlar üzrə 103,9 %, kommunal təşkilatlar üzrə isə 220,8 % təşkil etmişdir.

9 ay ərzində 1277 yeni abonentə təbii qaz verilərək, fərdi abonentlərin ümumi sayı 17820-yə çatdırılmışdır. Qəbələ Xidmət Sahəsi tərəfindən demontaj boru ilə 1006 p/m yeni xətt çəkilmiş, 15 ədəd təzyiq tənzimləyicisi quraşdırılmışdır.

Qəbələ Sukanal İdarəsi tərəfindən Qaraçay və Duruca su hövzələrində yerləşən anbarlar lil və qumdan təmizlənmiş, cari təmir işləri görülmüşdür. Şəhərin Nizami Gəncəvi, Heydər Əliyev, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, İsmayıl bəy küçələrində və mərkəzi kanalizasiya xətlərində təmir-bərpa işləri aparılmışdır. Muxtar Abduyev küçəsində gücü 100 kubmetr olan su nasosu təmir olunaraq istifadəyə verilmiş, müxtəlif diametrli 52 metr kanalizasiya xətti bərpa olunmuşdur. Zarağan kəndində məcburi köçkünlər üçün inşa edilən şəhərcikdə 1 ədəd su nasosu dəyişdirilmiş, eyni zamanda istehlakçılara 422 ədəd su sayğacı quraşdırılmışdır. Hazırda şəhərin su və kanalizasiya təchizatının yenidən qurulması sahəsində ikinci mərhələ üzrə işlərə başlanılmışdır. 9 ay ərzində 438,6 min manat dəyərində su və kanalizasiya xidməti göstərilmiş, həmin məbləğin 86 %-i yığılmışdır. Bu göstərici əhali sektoru üzrə 88 %, büdcə təşkilatları üzrə 70,2 %, kommersiya və digər təşkilatlar üzrə 90 % təşkil etmişdir.



"Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya olan tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2015-ci il tarixli Sərəncamına əsasən 2016-cı ildə Qəbələ şəhərində, Vəndam qəsəbəsində və Zirik kəndində, 1 iyul 2016-cı il tarixli Sərəncamına əsasən isə Mıxlıqovaq, Zarağan, Məlikli kəndlərində cəmi 6 ədəd subartezian quyusu qazılaraq istismara verilmişdir.

Bunlardan əlavə Azərbaycan Respublikası Prezidentinin 17 mart 2017-ci il tarixli 2754 nömrəli Sərəncamına əsasən cari ildə Mıxlıqovaq kəndində daha 1 ədəd subartezian quyusunun qazılmasına başlanılmışdır. Hazırda həmin quyuda qazma işləri davam etdirilir.

Qəbələ Rayon Mənzil İstismar və Kommunal Müəssisələr Kombinatı 9 ay ərzində şəhər təsərrüfatına 354,5 min manat, ictimai yaşayış binalarına 39,5 min manat, idarə və müəssisələrə 61,5 min manat, kommersiya obyektlərinə 8,9 min manat və fərdi yaşayış evlərinə 4,4 min manat cəmi 468,8 min manat dəyərində təmizlik və digər kommunal xidmətləri göstərmişdir.

İlin ötən dövrü ərzində 10 №-li Yol İstismarı MMC tərəfindən Mamaylı-Bayramkoxalı avtomobil yolunda 71,1 min manatlıq təmir işləri, rayonun digər ərazilərində 661,6 min manatlıq cari təmir və yolların saxlanılması işləri, 235,0 min manatlıq sair işlər görülmüşdür. Eyni zamanda şəhərin Heydər Əliyev prospektində investisiya obyekti üzrə 2400,0 min manatlıq təmir və abadlıq işləri yerinə yetirilmişdir.

Qəbələ Telekommunikasiya Qovşağı 934,6 min manat taarif gəliri proqnozuna qarşı 947,5 min manat gəlir əldə etmiş, proqnoz tapşırığa 101,4 % əməl etmişdir. Ümumilikdə rayon üzrə 1 şəhər EATS-i (3582 nömrə), 23 kənd EATS-i (8.304 nömrə), 3 mini EATS-i (96 nömrə) fəaliyyət göstərir ki, həmin EATS-rin ümumi montaj tutumu 11.982 nömrə təşkil edir. 4 kənd (14 nömrə) peyk rabitəsi ilə təmin olunub. Hazırda rayon üzrə hər 100 təsərrüfata düşən telefon abonentlərinin sayı orta hesabla 50 ədəd təşkil edir. 9 ay ərzində şəhər və kənd əhalisinə 395 ədəd telefon çəkilmiş, 1647 ədəd internet qoşulması verilmişdir. Genişzolaqlı internet xidmətindən istifadə edən abunəçilərin sayı 5253 nəfər təşkil edir. Şəhər telefon şəbəkəsində 75 ədəd istismara yararsız rabitə dirəyi dəyişdirilmiş və yeni dəmir dirəklərlə əvəz edilmişdir. Rayonun "Almalıq" adlanan yaşayış massivində 100 nömrə üçün yeni şəbəkə tikilmiş, 75 nömrə çəkilərək abunəçilərin istifadəsinə verilmişdir. Heydər Əliyev prospektində və Nizami Gəncəvi küçəsində 150-yə yaxın zədəli xətlər təmir olunmuşdur. Hacılalı və Zarağan kənd EATS-i müvəqqəti yerləşdirilmiş binadan yeni tikilmiş EATS-in binasına köçürülmüşdür. Zarağan kənd EATS-nin xətt şəbəkəsindən Daşca kəndi istiqamətində 30 nömrənin abunəçilərə verilməsi üçün dirəklər basdırılmış və xətt şəbəkəsinin tikintisi başa çatdırılmışdır.

"Azərpoçt" MMC-nin Qəbələ Filialı 203,9 min manata qarşı 234,7 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığı 115 % yerinə yetirmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 39,8 min manat artım olmuşdur.

Dövlət Sosial Müdafiə Fondunun Qəbələ rayon şöbəsində 2017-ci ilin 9 ayı ərzində gəlirlər üzrə proqnozda nəzərdə tutulmuş 3683,8 min manata qarşı 3599,8 min manat məcburi dövlət sosial sığorta haqları toplanaraq, proqnoz tapşırığa 97,7 % əməl olunmuşdur. Proqnozun icrası müvafiq olaraq büdcə təşkilatları üzrə 1454,9 min manata qarşı 1318,6 min manat və ya 90,6 %, qeyri-büdcə təşkilatları üzrə isə, 2228,9 manata qarşı 2281,2 min manat və ya 102,3 % olmuşdur. 2017-ci ilin 9 ayı ərzində 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə ümumilikdə 393,3 min manat və ya 20,8 % çox məcburi dövlət sığorta haqları toplanmışdır. Büdcə üzrə daxilolmaların azalmasına səbəb, rayon təhsil və mədəniyyət işçilərinin əməkhaqqından ödənilən məcburi dövlət sığorta haqları üzrə daxilolmaların dayanması olmuşdur.

9 ay ərzində 1339 sığortaedən qeydiyyata alınmışdır ki, bunlardan 57-si hüquqi, 1282-si fiziki şəxs olmuşdur. 1 oktyabr 2017-ci il vəziyyətinə şöbə üzrə 11.629 pensiya işi üzrə 11.906 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Hesabat dövründə pensiyaçılara ümumilikdə 18087,6 min manat pensiya, 260,7 min manat məcburi dövlət sığorta haqları hesabına müavinətlər ödənilmiş, orta aylıq pensiya məbləği 2008,6 min manat, bir pensiya işi üzrə isə orta aylıq pensiya məbləği 172 manat 72 qəpik təşkil etmişdir. Xərclənmiş vəsaitin 14805,0 min manatı subsidiyalar, digər hissəsi isə, yerli daxilolmalar hesabına olmuşdur.

Hazırda şöbədə 4132 hərəkətdə olan sosial müavinət, 521 təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 323,6 min manat təşkil edir. Hesabat dövrünün sonuna şöbədə 356 hərəkətdə olan ünvanlı sosial yardım işi olmuşdur.

Rayonun yaşayış məntəqələrinin sel sularından qorunması, kənd təsərrüfatının suvarma suyu ilə təminatı üçün suvarma kanalları 287 min kubmetr lildən, daşqın və selə qarşı mübarizə məqsədilə 560 min kubmetr çay məcrası daş və qumdan təmizlənmiş, 176 kubmetr qabion bəndi vurulmuş, 722 kubmetr daş beton bəndi, 40 kubmetr şax bəndi cari təmir edilmişdir. Nohur gölündə suaparıcı kanalın təmiri başa çatdırılmışdır.

**Hörmətli tədbir iştirakçıları!**

Hər il olduğu kimi bu ildə rayonda təmir-tikinti və abadlıq işləri davam etdirilmiş və Qəbələ Rayon Məhkəməsinin inzibati binası, rayon kənd təsərrüfatı idarəsinin inzibati-laboratoriya binası, peşə məktəbinin tədris korpusunda inşaat, şəhərin sel sularından mühafizəsi məqsədi ilə Dəmiraparan çayının sağ sahilində sahilbərkitmə işləri başa çatdırılmışdır.

Aydınqışlaq kənd tam orta məktəbi əsaslı təmir olunmuş, Seyidqışlaq kənd ümumi orta, Cığatelli kənd tam orta məktəblərində modul tipli məktəblər tikilərək istifadəyə verilmişdir.

Muxtar Abduyev küçəsindəki 5 ədəd beşmərtəbəli binanın dam örtüyü yenilənmiş, xalça toxuculuğu müəssisəsində və atcılıq mərkəzində tikinti işləri davam etdirilmişdir.

Bununla yanaşı şəhərin Heydər Əliyev prospektində, Həzi Aslanov, 28 may, Xalid Qasımov küçələrində və Qarabağ müharibəsi əlillərinə və şəhid ailələri üçün inşa edilmiş 2 ədəd ikimərtəbəli və 1 ədəd dördmərtəbəli yaşayış binalarında əsaslı təmir işləri aparılmışdır. Tikanlı kənd uşaq bağçasında isə əsaslı təmir işləri başa çatmaq üzrədir.

Tikintisi yarımçıq qalmış "Qafqaz Aqua Land Hotel"in, "Qafqaz Diamond Akvapark"ın, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin, Qəbələ Rayon Prokurorluğunun, Gömrük Akademiyasının inzibati binalarında və şəhərdə yenidənqurulan içməli su və kanalizasiya sisteminin keçid obyektlərində tikinti işlərinin davam etdirilməsi nəzərdə tutulmuşdur.

**Hörmətli tədbir iştirakçıları!**

2016-2017-ci tədris ilini rayonumuzun təhsil işçiləri də yüksək nəticələrlə başa vurmuşdur. Dərs ilində müvəffəqiyyət faizi 99,9 %, keyfiyyət göstəricisi isə 64,8 % olmuşdur.

2016-2017-ci dərs ilində müəllimlər arasında keçirilən diaqnostik qiymətləndirmədə rayonumuzdan 2130 nəfər müəllim iştirak etmişdir.

Ölkəmizdə təhsil islahatının mühüm və aparıcı tərkib hissələrindən biri "Milli Kurikulum"un həyata keçirilməsi ilə əlaqədar olaraq rayonumuzda tam orta təhsilin təmayüllər üzrə aparılması nəzərdə tutulmuşdur. Bunu nəzərə alaraq 13 məktəbdə 16 kombinə edilmiş təmayüllü siniflər təşkil edilmiş, oraya 345 şagird qəbul olunmuşdur. Təmayüllü sinflərin tədris proqramları məktəblərə çatdırılmışdır.

(Ardı 5-ci səhifədə).